

# Şeirin əvvəl havası gəlir, sonra özü

## Xalq şairi Ramiz Rövşən: “İnsan özünü təsdiqləməyi bacarmalıdır”

**”Se-nur” Psixologiya və İnkişaf Mərkəzinin direktoru, psixologiya üzrə fəlsəfə doktoru Hökümə Əliyevanın təşkil etdiyi ”Hisslər və emosiyalar” adlı seminar çox maraqlı poetik ahənglə keçirildi. Seminara dəvət olunan görkəmli şair Ramiz Rövşən ona ünvanlanan sualları cavablandırdı, şeirlərini oxudu. Həmin görüşdən yadda qalan bəzi fraqmentlər isə sevgi, qarşılıqlı münasibətlər, ölüm, həyatın özü haqda düşüncələr oldu. Ümumi suallardan dolayı şairin cavablarının cəmi olaraq, bu düşüncələrin oxucular üçün də maraqlı ola biləcəyini hesab edirəm.**

### OXUCU-ŞAİR MÜNASİBƏTLƏRİ ÇOX TƏHLÜKƏLİDİR

**- Ramiz Rövşən ünvanını bilirmi?**

- Mən şeirlərimi konkret oxucuya yazmıram. Ümumiyyətlə, oxucu-şair münasibətləri çox təhlükəlidir. Çünki səni sevən oxucularının olduğunu düşünərkən, bir gün o sevgini itirmək qorxusunu duyacaqsan. Beləliklə də, elə o oxucuya uyğunlaşmağa başlayacaqsan. Bu, qətiyyən düzgün deyil. Şairliyin konkret ünvanı ola bilməz. Konkret ünvanı olan şeir yaşaya da bilməz. Hər kəsin bir zövqü, bir qavrayış tərzi olur. Bu, təbiidir. Amma şair ən aşağı zövqə şeir yaza bilməz! Bəzən oxucular şeirdən elə məna çıxarırlar ki, bu sənin ağlına da gəlməyib. Bəzən şair öz şeirlərində nələri dediyini özü bilmir. Əslində, bu heç vacib də deyil.

### DAHİLƏR ÖZ UŞAQLIĞINI İÇİNDƏ YAŞADA BİLƏNLƏRDİR

**- Hisslərin yaşı ağlın yaşından çoxdur...**

- Hiss və duyğu eyni şey deyil. Hiss bayırdadır, duyğu isə içəridən gələndir. İnsanın hisslərini ifadə etməyi onun emosiyalarıdır. Çox duyğularımız var; təmiz sevgi, sevinc, kədər... Bunların hamısını isə poeziya ifadə edir.

İlkin olaraq, hisslər yaranır. Uşaqların hissləri böyüklərin hisslərindən sadədir, amma daha dərindir. İnsan da ana bətnində bütün canlıların keçdiyi yolu keçir. Amma uşaq şüurunun alt qatı qorxularla doludur. Bu, nağıllarda əksini tapıb. Uşaq yuxuları qəribədir. Bizim nağıllarımız elə bil ki, bəşəriyyətin gördüyü uşaq yuxularıdır. Div, cırtdan və ya qırmızıpapaq... Uşağın şüuraltı qatında çox şeylər var, insan yaşa dolduqca onlar tədricən itib yox olur. Heyvanlarda instinktlər güclüdür. Lakin digər canlılardan fərqli olaraq, insan həyatı boyu təcrübələr qazanır və bu təcrübəsinə arxayın olur. Bu mənada, bəlkə də uşaqlarda olan hissiyyat ən qocaman hissiyyat sayıla bilər. Amma təcrübə məsələsi tamamilə şərti bir şeydir. Yetmiş yaşında olan insanın təcrübəsi - elə yetmiş yaşın təcrübəsidir. Bu təcrübənin daxilində on beş yaşın hissiyyatı qalır. On beş yaşında dünyanı necə görmüsənsə, necə hiss etmisənsə, eləcə qalmır, illər keçdikcə bu hisslər artıq korşalır. Bir günlük ömrü olan kəpənəyin yaşam təcrübəsi ilə yüz il yaşayan qarğanın ”dünyagörüşü” eyni ola bilməz. Hər birinin dünya haqda öz təsəvvürü var, yəni onun təsəvvüründə dünya bir cür, bu birinin təsəvvüründə başqa cür ola bilər. Kant deyir ki, dahilər öz uşaqlığını içində yaşada bilənlərdir. Uşaqlıq - saflıqdır, uşaq özünü ifadə edərkən, daha çox hisslərinə, emosiyalarına varır. Körpə düşündüyünü deyir. Lakin eyni zamanda, böyükləri yamsılayır.

Böyük insan ”yox” deyə bilmir, yəni insan yaşlandıqca ”yox” demək qabiliyyəti aradan qalxır. Uşaq isə bunu bacarır, ”yox” deməklə, özü üçün müdafiə yaradır. Dostoyevski deyir ki, şəxsiyyət imtina etməyi bacarmaqdan başlayır.

İnsan yaşlandıqca, hisslərin yaşına gəlib çatır. Hisslərə də münasibəti dəyişir...

### SEVGİ, YOXSA HÖRMƏT?

**- Hörmətsiz sevgi varmı?**

- Hörmətsiz sevgi ola bilməz. Sevgi olmayan halda, hörmət seçimi yoxdur. Heç ola bilərmi ki, insan sevdiyi adama hörmət etməsin? Amma sevgisiz hörmət ola bilər. Sevginin içində hörmət var. Bu, əbədi bir şeydir. Amma hörmət etdiyin adamı sevməyin vacib deyil.

**- Sənə əzab verəni sevmək olurmu?**

- Sevgi - xəstəlikdir. Ayıldın, keçdi. Sevgi birmənalı anlayış deyil. İnsan özü üçün sevirsə, deməli, özünü sevir. Özünü onun üçün sevirsə, deməli, onu sevir. Sevgidə bir fədakarlıq var. Və doğrudan da, qəribədir ki, əzab verəni sevmək də var. Burada o qədər mazoxist məqamlar var ki... İstisnaları da qeyd etmək olar. Məsələn, qulun ağasını sevməsi kimi. Mahiyyət etibarilə burada bir asılılıq, bağlılıq var.

Bu, çox ciddi, dərin və qəliz bir mövzudur. Bu mövzuda əsərlər həddən artıq çoxdur. Markiz de Sadın romanları başdan-ayağa mazoxist münasibətlər haqqındadır. Ağrıdan həzz alma, sadist düşüncələr haqda əsərlər yazılıb. Belə filmlər də çəkilib: ”Bozun əlli çaları” da belə filmlərdəndir...

**- Özünüzdə hansı qüsuru qiymətli hesab etmisiniz?**

- Tənbələm. Ən yaxşı xüsusiyyətim də tənbəllikdir. Tənbəllik məni çox şeylərdən xilas edib. Deyirlər ki, tənbəllik istedadın bacısıdır.

İnsanlar çox şeyi etiraf etməyə həvəsli deyillər. Başqalarının etiraf etməyə çətinlik çəkdiyi şeyləri sən ifadə edirsən, yazırsan. İnsan içindəki o yükdən azad olur...

**- ”Biz olmayan yer” haradır?**

- Elə zülm də odur... Adama elə gəlir ki, o olmayan yer ən gözəl yerdir. Amma təəssüf ki, hara getsək, biz özümüzü ora aparacağıq...

Uzaqlardan gələn qatar,  
söylə, uzaqlar necədi?  
Orda çiçəklər necədi,  
orda yarpaqlar necədi?..

Biz də kimlər üçünsə uzağıq. İnsan həmişə özündən azad olmağa can atır. Çalışaq ki, ən gözəl yer elə biz olan yer olsun.

### DİN VƏ POEZİYA...

**- İnsanın özünü dərk etməsində dinin rolu varmı?**

- Elə insan var ki, onu həyatla barışdırmaq çətindir, eləsi də var ki, onu ölümlə barışdırmaq çətin olur. Ölüm zamanı saç yolmaq, ağlamaq dərdi tamaşaya çevirməkdir. Ağı demək dərdi yüngülləşdirir. İnsanın səsində çox şey var...



Din mahiyyət etibarı ilə poeziya ilə eynidir. Bir var dünyanı fəlsəfi dərketmə, bir də var poetik dərketmə. Dini və fəlsəfi dərketmə poetik səviyyəyə daxildir. Dini dərk - ən yüksək səviyyədə poetik dərketmədir. Poetik səviyyədə müəyyən fikirlərlə, sitatlarla hansısa bir rəvayəti əsaslandıra bilməlisən. Hər ikisinin mahiyyəti insanı həyat və ölümlə barışdırmaqdır. Din insandan ölüm xofunu götürür.

Ümumiyyətlə, insan həyatının süqutu ölümdür. Həyatın sonu doğuluş ola bilməz. İnsan ölü də doğula bilər. Poeziya insanın ruh qatına, mənəviyyata varır. Təkcə deyiləni yox, deyilməyəni də ifadə edir. Şeir kələm kimidir. Hər qatında məna var...

**- Biz nədən qorxuruq?**

- İnsan dünyaya gələndə niyə çığırır? Deyirlər ki, ciyərləri açılır. Amma çığırtı birmənalı olaraq qorxudandır. ”A” səsi ilə çığırmaq qorxunun ifadəsidir. Məşhur fransız şairi Artur Lembanın bir şeirində səslərin rəngi haqqında danışılır. ”A” hərfi ”Qara və tüklü A” deyə təsvir edilir. Ümumiyyətlə, insan dünyaya gəldikdən sonra bütün ömrü boyu tərk etdiyi ana bətnini qurmaqla məşğuldur. Paltar, ev, hətta maşın... Dünyaya gələrkən qışqırmayanlar da var. Amma bu hallar istisnalardır.

Allah insanın əməlindən çox, niyyətinə qiymət verir. Əməl aldada bilər... Bizim qorxularımız - ən çox nifrət etdiyimiz şeydəndir. Ən çox sevdiyimiz isə - itirməyə qorxduğumuz şeydir.

### ŞEİR NECƏ YARANIR?

**- Şairin aldığı psixoloji travmalar şeirə dönürmü?**

- Şairlər bir az eqoist olurlar, ona görə də hər şeyi görmürlər. (Bəzi gözəllər kimi...) Şairlik - seçilmişlikdir. Allah sənə özünü ifadə etmək qabiliyyəti verirsə, bu, artıq seçilmişlikdir.

İnsanın həyatda aldığı travmalar onu şair kimi də formalaşdıra bilir. Bəzən içimiz travmalarla dolu olur. O travma hər kəsin içində var...

Şeirə gəldikdə... Şeirin əvvəl havası gəlir, sonra özü. Şeir yazanda elə bil ki, həmin anda əlinin üstündə bir əl hiss edirsən...

Şairlik iş deyil, vərdiş deyil,  
Allah vergisi də deyil,  
Vergi deyil, bəxşiş deyil.  
Bəlkə qarğışdır, söyüşdür?  
Qarğış deyil, söyüş deyil.  
Bəs o kimdir dayanıb  
Allahla bəndə arasında?  
Amma molla deyil, keçiş deyil.  
Şair nədir bir Allah bilir,  
bu, bəndənin qandığı iş deyil...

Təbəssüm...

- İnsanı bütün canlı aləmdən fərqləndirən yeganə xüsusiyyəti - onun təbəssümüdür...

- İnsanın hiss və duyğuları - sevgi, qorxu, əzab, kədər, sevinc, saflıq, hörmət, həzz, nifrət... kimi cürbəcür ”rənglərdən” ibarətdir. Bu cür rəng çalarları insanın yalnız daxilini deyil, simasını da ”tənzimləyir”. Onun üz cizgilərini hamar və ya nahamar edir. Hansısa müsbət duyğuların təzahüründən yaranan təbəssüm doğrudan da, yalnız insana xasdır. Yəqin elə buna görədir ki, bir-birimizə ən gözəl arzumuz da ”Üzündən təbəssüm əskik olmasın!” deyimidir.

**Hazırladı:**  
**Zeynəb Əliqızı**